# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

SAYI
29-30
(13.399)

CÜMƏ
18
APREL
2025-ci il

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## İ. KOBAXİDZE: ƏSAS PRİORİTETİMİZ Aİ ÜZVLÜYÜDÜR – GÜRCÜSTANIN İNTEQRASİYA YOLU İNTENSİVLƏŞDİRİLMƏLİDİR



***"Ölkənin əsas prioriteti Avropa İttifaqına üzv olmaqdır."***

Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze Türkiyənin Antalya şəhərində keçirilən Diplomatiya Forumunda çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, müəyyən çətinliklərə baxmayaraq, Gürcüstanın Aİ-yə inteqrasiyası daha intensiv şəkildə həyata keçirilməlidir.

“Çox aydın baxışımız var – əsas prioritetimiz Aİ üzvü olmaqdır. Bu istiqamətdə müəyyən çağırışlar mövcuddur, lakin ümid edirik ki, ölkəmizdə və regionda, xüsusilə Ukraynada sülhün bərpası ilə Gürcüstanın inteqrasiya yolu daha intensiv davam edəcək,” – deyə İrakli Kobaxidze vurğulayıb.

Baş nazirin sözlərinə görə, inkişaf və dövlətlərarası münasibətlərin düzgün qurulması üçün əsas amil sülhdür.

***“Regionda sülhün möhkəmləndirilməsinə diqqət yetirilməlidir. Məmnunuq ki, bu istiqamətdə Türkiyə ilə birgə çalışırıq – bu ölkə də sülh yönümlü baxışa malikdir. Gələcəkdə də bu sülh strategiyasını davam etdirəcəyik və diqqətimizi ölkənin, xüsusilə iqtisadiyyatın inkişafına yönəldəcəyik. Bu, Gürcüstanın əlaqəlilik imkanlarını və iqtisadi gücünü daha da artıracaq. Sülh və rifah hər kəsin diqqət etməli olduğu əsas hədəfdir,”*** – deyə İ. Kobaxidze əlavə edib.

## MİXEİL KAVELAŞVİLİ FAİQ QULİYEVLƏ TANIŞLIQ GÖRÜŞÜ KEÇİRİB



***Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyevlə tanışlıq görüşü keçirib.***

Məlumatı Prezident Administrasiyasının Mətbuat xidməti yayıb.

*“Tərəflər ölkələr arasında sıx dostluq münasibətlərini müsbət qiymətləndirib və Gürcüstan - Azərbaycan strateji tərəfdaşlığının əsas istiqamətlərini müzakirə ediblər. Görüşdə regionun sabit və dinc inkişafının vacibliyi qeyd edilib. Mixail Kavelaşvili bəyan edib ki, dünyada davam edən münaqişələr, tarif müharibələri, geosiyasi gərginliklər fonunda regionda sabitliyin və sülhün qorunması daha da vacib xarakter alır.*

*Tərəflər Gürcüstan və Azərbaycan arasında nümunəvi strateji tərəfdaşlığın daha dinamik olmasına hazır olduqlarını bildiriblər.*

*Mixeil Kavelaşvili Azərbaycan tərəfinə Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə göstərdiyi sarsılmaz dəstəyə görə təşəkkür edib.*

*Söhbət zamanı Gürcüstan prezidentinin aprelin 15-16-da Azərbaycan Respublikasına planlaşdırılan ilk rəsmi səfərinin təfərrüatlarına da toxunulub”,* - verilən məlumatda belə deyilir.

## İRAKLİ KOBAXİDZE AVROPA ŞURASININ BAŞ KATİBİ İLƏ MÖVCUD VƏZİYYƏTİ MÜZAKİRƏ EDİB

***Baş nazir İrakli Kobaxidze Antalya Diplomatiya Forumu çərçivəsində Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşüb.*** Bu barədə Gürcüstanın hökumət administrasiyası məlumat yayıb. Məlumata görə, görüşdə Gürcüstanla Avropa Şurası arasında əməkdaşlıq məsələləri müzakirə olunub. Tərəflər ölkənin Avropaya inteqrasiya yolunda çətinlikləri və Gürcüstanda gedən siyasi prosesləri müzakirə ediblər. Bildirilir ki, Baş nazir Avropa Şurasının Baş katibinə son hadisələrlə bağlı ətraflı məlumat verib. Görüşdən sonra Baş naziri İrakli Kobaxidze X sosial şəbəkəsində qeyd edib: *"Alen Berse ilə Avropaya inteqrasiya yolunda demokratik islahatlar prosesini asanlaşdıran amil kimi Avropa Şurası ilə əməkdaşlığın vacibliyini vurğuladım. Görüş zamanı biz əməkdaşlığı daha da gücləndirməyə və fəal dialoqu davam etdirməyə hazır olduğumuzu bir daha təsdiqlədik".*




## GÜRCÜSTAN PREZİDENTİ MİXEİL KAVELAŞVİLİ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ GÖRÜŞÜB



***Gürcüstanın altıncı prezidenti Mixeil Kavelaşvili Azərbaycana rəsmi səfəri çərçivəsində 16 apreldə Bakıda Azərbaycan prezidenti İlham Əliyev ilə görüşüb.***

Görüşdən sonra Mixeil Kavelaşvili və İlam Əliyev media nümayəndələri üçün birgə bəyanatlarla çıxış ediblər. Prezident İ. Əliyev M. Kavelaşvilinin ilk rəsmi səfərini Azərbaycana etməsini alqışlayıb və iki ölkə arasında sıx əlaqələrin olduğunu vurğulayıb. O, həmçinin iqtisadi - ticarət əlaqələrinin inkişafına diqqət çəkib və Orta Dəhliz layihəsinin əhəmiyyətini vurğulayıb. M. Kavelaşvili səmimi qəbula görə Prezident İ. Əliyevə minnətdarlığını bildirib və qeyd edib ki, onun Azərbaycana ilk rəsmi səfəri iki ölkə arasında “strateji və xüsusi mehriban qonşuluq münasibətlərini” təsdiqləyir.

“Qlobalizm dövrünün” çağırışlarından danışan M. Kavelaşvili deyib: *“Gürcüstan və Azərbaycan xalqları birdir və xalqlarımız üçün həyati əhəmiyyət kəsb edən dəyərlərin qorunması uğrunda mübarizədə gələcəkdə də birləşəcəklər”.*

M. Kavelaşvili həmçinin İ. Əliyevə Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyinə görə təşəkkür edib və Gürcüstanın hər zaman Azərbaycanın suverenliyini dəstəklədiyini qeyd edib. O, Azərbaycan və Ermənistan arasında sülh danışıqlarını alqışlayıb.

Qeyd edək ki, Azərbaycana səfəri zamanı Mixeil Kavelaşvili Baş nazir Əli Əsədov və Milli Məclisin sədri Sahibə Qafarova ilə də görüşüb.

Bildiririk ki, nümayəndə heyətinin tərkibində Parlamentin deputatları, soydaşlarımız Zaur Dargallı və Savalan Mirzəyev də olublar.

## PRAVOSLAV XRİSTİANLAR PASXA BAYRAMINI QEYD EDİRLƏR

***Xristian inancına görə, müqəddəs Pasxa Günü - İsa Məsihin Dirilməsi bayramı bu il Qriqorian təqvimi ilə aprelin 20-də qeyd edilir.***

Pasxa İsa Peyğəmbərin çarmıxa çəkilməsindən üç gün sonra dirilməsi münasibəti ilə qeyd edilən bayramdır.

Pasxa xristianların ən qədim, mühüm və sevimli bayramlarından biridir. Ənənəyə görə, inanclı xristianlar cümə axşamı səhər kuliç bişirir, axşam pasxa hazırlayır, şənbə günü onları kilsəyə aparır, şənbə günündən bazar gününə keçən gecə isə Pasxanın və İsanın Dirilməsi bayramının başlanmasını bildirən Xaç yürüşü edirlər. İsa peyğəmbərin Dirildiyi Müqəddəs Gün isə hamı Pasxa süfrəsi arxasında əyləşir, bir-birini Pasxa və kuliçə qonaq edir, yumurta döyüşdürür və bir-birini “İsa Dirildi!” (ქრისტე აღდგა) kəlməsi ilə salamlayır.



***Xristian həmvətənlərimizi bu müqəddəs bayram münasibəti ilə təbrik edirik!***

## GÜRCÜSTANDA SİYASİ PARTİYALARA XARİCİ DƏSTƏK MƏHDUDLAŞDIRILIR

Parlamentin Hüquq Məsələləri Komitəsi siyasi partiyaların və seçki məqsədi ilə fəaliyyət göstərən şəxslərin xarici hüquqi şəxslərdən ianə və qrant almalarını məhdudlaşdıran qanun layihəsini birinci oxunuşda təsdiqləyib. Bu barədə ölkə parlamentinin Mətbuat Mərkəzi məlumat yayıb. Məlumata görə, “Gürcü Arzusu” fraksiyasının təşəbbüsü ilə hazırlanan qanun layihəsinə əsasən, siyasətlə məşğul olan şəxslər Gürcüstanda və ya xaricdə qeydiyyatdan keçmiş hüquqi şəxslərdən mühazirə, seminar və digər ictimai tədbirlər vasitəsilə maliyyə yardımı qəbul edə bilməyəcəklər. Qrantların alınması üçün isə Gürcüstan hökumətinin və ya səlahiyyətli qurumun razılığı tələb olunacaq. Qanun layihəsində bildirilir ki, razılıq olmadan qəbul edilən qrantlara görə, şəxs ikiqat məbləğdə cərimələnəcək. Bu qaydalar ümumi və ali təhsil, elmi fəaliyyət və beynəlxalq idman tədbirləri üçün verilən fərdi qrantlara şamil olunmayacaq. Təşəbbüs müəllifləri bildirirlər ki, məqsəd ölkənin suverenliyini və daxili siyasi proseslərinə xarici təsirlərin qarşısını almaqdır. Qanun layihəsinin qəbul edilməsi Gürcüstanda fəaliyyət göstərən siyasi birliklər üçün yeni hüquqi çərçivə müəyyənləşdirəcək.

14 APREL

# GÜRCÜ DİLİ ÜZRƏ DÖVLƏT STRATEGİYASININ NƏTİCƏLƏRİNİN TƏQDİMATI KEÇİRİLİB

***Gürcü Dili Günü münasibətilə "Azərbaycandilli və ermənidilli əhali arasında dövlət dilinin öyrənilməsi və mənimsənilməsi motivasiyası üzrə tədqiqat"ın nəticələrinin təqdimatı keçirilib.***

Dövlət naziri Tea Axvlediani tədbiri salamlama nitqi ilə açaraq, Gürcü Dili Günü münasibəti ilə toplaşanları təbrik edib, gürcü dilinin qorunması və inkişafının əhəmiyyətindən danışıb. Tea Axvlediani Dövlət Naziri Aparatının təşəbbüsü ilə keçirilən "Gürcü dilininin öyrənilməsi və mənimsənilməsinin motivasiyası üzrə tədqiqat"ın nəticələrini təqdim edərək, müzakirəyə çıxarıb. Araşdırmaya əsasən, etnik azlıqların sıx məskunlaşdığı regionlarda gürcü dilini bilmə səviyyəsi ildən-ilə yüksəlir və dövlət dilini bilənlərin sayı ildən-ilə artır ki, bu da əsasən strategiya çərçivəsində nəzərdə tutulan mexanizm və proqramların icrası ilə bağlıdır. Dövlət nazirinin bildirdiyinə görə, gürcü dilinin yüksək səviyyədə öyrənilməsinə çıxışın təmin edilməsi vətəndaş bərabərliyi və inteqrasiya siyasətinin əsas prioritetidir və bu siyasət çərçivəsində tədqiqatlar nəticəsində müəyyən edilmiş ehtiyaclar nəzərə alınmaqla, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün mərkəzi və yerli hökumətlər tərəfindən gürcü dilinin öyrənilməsi imkanlarının daha da genişləndirilməsi və qarşıya qoyulan uzunmüddətli hədəflərə 2030-cu ilə qədər uğurla nail olunması istiqamətində birgə səylər davam etdiriləcək.



Etnik azlıqların sıx məskunlaşdığı regionlarda gürcü dilinin kütləviləşdirilməsinin və bilinməsinin əhəmiyyəti ilə əlaqədar toplaşanlara Gürcüstanın Təhsil, Elm və Gənclər naziri Aleksandre Tsuladze, Parlamentin İnsan Hüquqlarının Müdafiəsi və Vətəndaş İnteqrasiyası Komitəsinin sədri Rati İonatamişvili, Parlamentin Təhsil, Elm və Gənclik İşləri Komitəsinin sədri Qivi Mikanadze, Xalq Müdafiəçisi Levan İoseliani və Dil Dövlət Departamentinin rəhbəri Qiorqi Alibeqaşvili müraciət ediblər.

Dövlət nazirinin müavini Lia Qiqauri iştirakçılara tədqiqatın nəticələri haqqında qısa hesabat təqdim edib. Tədqiqat Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) dəstəyi ilə "Public Defender" müstəqil tədqiqat təşkilatı tərəfindən hazırlanıb.

Tədbirdə icra və qanunvericilik orqanlarının, eləcə də yerli hakimiyyət orqanlarının, elmi dairələrin, vətəndaş cəmiyyətinin nümayəndələri iştirak ediblər.

*"Bütün Gürcüstanı gürcü dilinin dövlət dili statusunun qorunması məqsədilə ölkəmizdə 47 il əvvəl baş vermiş tarixi hadisələrlə əlaqədar milli ləyaqət və böyük qiymət qoyaraq qeyd etdiyimiz bu əlamətdar tarix münasibətilə təbrik edirəm. Bu gün bizim məsuliyyətimiz təkcə gürcü dilini qorumaq və inkişaf etdirmək yox, eləcə də, xüsusilə qeyri gürcüdilli əhalimiz arasında dövlət dilini bilmə səviyyəsinin artırılmasına əl tutmaqdır. Bununla əlaqədar olaraq, 2030-cu il üçün müəyyən edilmiş strateji prioritetlərimizin həyata keçirilməsinin davam edən aralıq qiymətləndirilməsi mərhələsində təşəbbüsümüzlə həyata keçirilən genişmiqyaslı müstəqil araşdırmanın nəticələrinin və əldə edilmiş irəliləyişlərin təqdimatını Gürcü Dili Gününün qeyd olunmasına həsr etdik. Bu gün ermənidilli və azərbaycandilli əhalimizin, xüsusən də gənclərimizin dövlət dilini bilməsinin sayı və səviyyəsi günügündən artır ki, bu da həqiqətən də son məqsədlərimizə tam nail olmaq üçün gələcəkdə də ardıcıllıqla davam etdirəcəyimiz dövlət siyasətimiz çərçivəsində görülən işlərin nəticəsidir"*, - deyə Dövlət Naziri Tea Axvlediani bildirib.

# ZURAB JVANİA DÖVLƏT İDARƏÇİLİK MƏKTƏBİNDƏ DÖVLƏT DİLİ GÜNÜNƏ HƏSR OLUNMUŞ "GÜRCÜ DİLİ BİZİ BİRLƏŞDİRİR" ŞÜARI ALTINDA TƏDBİR KEÇİRİLMİŞDİR



Tədbiri məktəbin direktoru Ketevan Cakeli açaraq Gürcü Dili Günü münasibəti ilə iştirakçıları təbrik edib. O, dövlət dilinin vətəndaş inteqrasiyasının əsas vasitəsi və gürcü dilinin yayılması və öyrədilməsi baxımından Jvania məktəbinin ən mühüm missiyası olduğunu bildirib.

Tədbirdə tanınmış dilçilər və 14 aprel 1978-ci il tarixi hadisəsinin iştirakçıları Qiorqi Qoqolaşvili və Avtandil Arabuli iştirak ediblər. Onlar dövlət dilinin əhəmiyyətindən, Jvania məktəbinin dövlət əhəmiyyətli təhsil müəssisəsi kimi rolundan danışıblar.

Tədbir çərçivəsində Dövlət Dilinin Tədrisi və İnteqrasiya Proqramı tələbələrinin iştirak etdiyi "Biz gürcü dilini nə dərəcədə yaxşı bilirik?" intellektual yarışı keçirilib. Qaliblərə diplomlar və məktəb hədiyyə dəstləri təqdim olunub. Məktəb təlimçiləri də dövlət dilinin tədrisində və yayılmasında mühüm xidmətlərinə görə mükafatlandırılıblar.

Tədbirdə Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinin, Dini İşlər üzrə Dövlət Agentliyinin, Gürcüstan Elmlər Akademiyasının və digər dövlət qurumlarının nümayəndələri, həmçinin etnik azlıqların icma təşkilatlarının rəhbərləri və tanınmış ictimai xadimlər iştirak ediblər.

# GÜRCÜ DİLİ GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİRDƏ BARIŞIQ VƏ VƏTƏNDAŞ BƏRABƏRLİYİ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ TEA AXVLEDİANİ İŞTİRAK EDİB VƏ TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ EDİB

Gürcü Dili Gününə həsr olunmuş tədbir Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilib. Təhsil, Elm və Gənclər naziri Aleksandre Tsuladze, Gürcüstan Parlamentinin vitse-spikeri Nino Tsilosani, Dövlət naziri Tea Axvlediani, Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti Roin Metreveli, Dövlət Dili Departamentinin sədri Qia Alibeqaşvili iştirakçılar qarşısında çıxış edərək, Gürcü Dili Günü münasibətilə qonaqları təbrik ediblər.

Tədbir çərçivəsində təhsil naziri gürcü dilinin qorunub saxlanmasında və inkişafında müstəsna xidmətləri olan dilçi alimlərə və müəllimlərə fəxri mükafatlar təqdim edib.

*"Bugünkü tədbirdə biz milli kimliyimizin əsas sütunlarından biri olan gürcü dilinin və onun dövlət statusunun qorunmasının vacibliyi haqda danışdıq. Bu baxımdan, gürcü dilinin qorunmasında və inkişafında xüsusi rol oynamış və oynamaqda davam edən bütün görkəmli insanlara, o cümlədən, elmi-tədqiqat işində mühüm xidmətləri olan bütün müəllimlərə öz dərin ehtiramımı bildirmək istəyirəm. Milli azlıqlardan olan əhaliyə gürcü dilinin öyrədilməsi və populyarlaşdırılması - bu, həqiqətən də çoxmillətli cəmiyyətimizin daha da möhkəmlənməsi prosesində ən vacib işlərdən biridir"*, - deyə Dövlət naziri Tea Axvlediani bildirib.

Mükafatlandırma mərasimində xarici işlər naziri Maka Boçorişvili, Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı naziri Davit Sonqulaşvili, Məcburi Köçkünlər, Əmək, Səhiyyə və Əhalinin Sosial Müdafiəsi naziri Mixeil Sarcveladze, Regional İnkişaf və İnfrastruktur naziri İrakli Karseladze, Abxaziya Muxtar Respublikası Hökumətinin sədri Levan Mqaloblişvili o cümlədən icra, qanunvericilik və yerli hakimiyyət orqanlarının, Acarıstan Muxtar Respublikası Hökumətinin, Gürcüstan Patriarxlığının, ali təhsil müəssisələrinin və elmi-tədqiqat institutlarının nümayəndələri iştirak ediblər.

## Sitat guşəsi



"Bu çətin şəraitdə belə, biz çox dinc və praqmatik yanaşma nümayiş etdiririk. Rusiya Federasiyası ilə diplomatik münasibətimiz yoxdur, lakin iqtisadi əlaqələrimiz var və Rusiya ilə intensiv ticarət tərəfdaşlığı həyata keçirilir."

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Onlar Gürcüstanı böyük dövlətlərin maraqlarını həyata keçirmək üçün vasitəyə çevirmək istəyirlər. Bu isə ölkəmizin maraqlarına ziddir. Lakin biz bütün təhdidlərə baxmayaraq xalqımızı və dövlətimizi qorumaqda davam edəcəyik."

**Kaxa Kaladze,**
**Tbilisinin meri.**



"Macarıstan və Gürcüstanı güclü strateji tərəfdaşlıq birləşdirir. Bu tərəfdaşlıq ortaq mədəni və xristian irsimizə əsaslanır. Enerjinin şaxələndirilməsi və regional sabitlik sahəsində əməkdaşlığımız dərinləşməkdə davam edir. Gürcüstanla dostluğumuzu yüksək qiymətləndiririk və bu əməkdaşlığın gücləndirilməsinə sadiq qalırıq."

**Viktor Orban,**
**Macarıstanın baş naziri.**



"Biz ABŞ Prezidenti Donald Trampın açıqlamasını nəzərə aldıq. Danışıqlara şans vermək istəyirik. Üzv ölkələrimiz tərəfindən güclü dəstək alan Avropa İttifaqının əks tədbirlərinin icrasını 90 gün müddətinə dayandıracağıq".

**Fon der Lyayen,**
**Avropa Komissiyasının sədri.**



"Bizim regionumuzda sülh və sabitliyin təşviqində səmimi niyyətimiz var. Ona görə də, həmişə deyirik və indi də bunu təkrarlamaq istəyirəm ki, Gürcüstan Ermənistan və Azərbaycanın arxalana biləcəyi yerdir və biz regionumuzda dialoqu və əməkdaşlığı asanlaşdıracaq bütün mümkün vasitələri təmin edəcəyik. Cənubi Qafqazın böyük potensialı var".

**Maka Boçorişvili,**
**Gürcüstanın xarici işlər naziri.**



"Tbilisi hələ də diplomatik münasibətlərin bərpasını Abxaziya və Cənubi Osetiyaya dair mövqeyimizlə əlaqələndirir. Lakin biz Gürcüstanla qarşılıqlı faydalı əməkdaşlığı hərtərəfli şəkildə inkişaf etdirməyə bundan sonra da hazırıq".

**Mixail Qaluzin,**
**Rusiya XİN rəhbərinin müavini.**

## REGİON XƏBƏRLƏRİ

### DMANİSİ: MÜDAFİƏ VƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ İLƏ BAĞLI TOPLANTI KEÇİRİLİB



Dmanisi merinin birinci müavini Kaxa Petriaşvili "Milli Müdafiə və Təhlükəsizlik üzrə Gənclər və Veteranlar" təşkilatının direktoru Eduard Cişkariani ilə görüş keçirib.

Görüşdə gənclərin milli və mülki müdafiə sistemlərinə cəlb edilməsinin vacibliyi, ərazi könüllü birləşmələrinin yaradılması planı və Gürcüstanda 99 dövlət məktəbinin, o cümlədən Dmanisi bələdiyyəsində bir məktəbin iştirak etdiyi "Hərbi işlər" pilot təhsil proqramı ətraflı müzakirə edilib.

Görüş zamanı tərəflər arasında tərəfdaşlığı daha da dərinləşdirəcək anlaşma memorandumu imzalanıb.

### BOLNİSİ: SOSO KOPALEİŞVİLİ HESABAT TƏQDİM EDİB

Bolnisi Mədəniyyət Mərkəzinin direktoru Soso Kopaleişvili 6 illik fəaliyyəti barədə hesabatını təqdim edərək, yerli hökumət nümayəndələri və Mədəniyyət Mərkəzinin əməkdaşları ilə vidalaşıb. O, işini Gürcüstan parlamentinin Mədəniyyət komitəsində davam etdirəcək.

Bolnisi Mədəniyyət Mərkəzinin direktoru Soso Kopaleişvili məruzədə son altı ildə həyata keçirilən mühüm dəyişikliklərə və innovativ layihələrə diqqət çəkib. Maraqlıdır ki, 2019-cu ildən indiyədək Mədəniyyət Mərkəzi tərəfindən 300-dən çox tədbir keçirilib. Bundan əlavə, 4000-dən çox tələbə qeyri-formal təhsil alıb. Maraqlıdır ki, 2021-ci ildə mərkəz gənclərlə bağlı layihələr həyata keçirib və bütün bələdiyyə üzrə 6 gənclər icma mərkəzi yaradılıb.

Bolnisi Bələdiyyəsinin Mədəniyyət Mərkəzi bir sıra mühüm işlər görüb, o cümlədən 2024-cü ildə Bolnisi tarixi abidələrinin ikidilli, gürcü-ingilis dillərində kataloqunu nəşr edib. Sözügedən kataloqa bələdiyyənin ərazisində yerləşən 165 abidə daxildir.



Məruzənin təqdimatında Bolnisi bələdiyyəsinin meri vəzifəsini icra edən Buba Qobecişvili, meriyanın İnzibati xidmətinin rəhbəri Papuna Müşkudiani, meriyanın və Mədəniyyət Mərkəzinin əməkdaşları iştirak ediblər.

Hesabatdan sonra Buba Qobecişvili iştirakçılar qarşısında çıxış edərək, Mədəniyyət Mərkəzinin direktoru Soso Kopaleişviliyə səmərəli fəaliyyətinə görə təşəkkür edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

### Gürcü Dili Günü qeyd olunub

**Marneuli**

Bələdiyyənin yerli özünüidarəetməsinin dəstəyi və 6 saylı Marneuli ictimai məktəbinin təşkilatçılığı ilə Ana Dili Gününə həsr olunmuş tədbir keçirilib.

Şagirdlər qonaqlara rəngarəng proqram təqdim ediblər. Tədbir çərçivəsində etno-guşələr, kulinariya sərgisi və hər guşə ilə bağlı performanslar təqdim olunub.

Tədbirdə, Marneuli Bələdiyyəsi merinin birinci müavini Roin Dekanoidze və merin müavini Temur Şubitidze, Bələdiyyənin struktur bölmələrinin rəhbərləri və dəvət olunmuş qonaqlar iştirak ediblər.

Qeyd edək ki, Marneuli Bələdiyyəsinin rəhbərləri həmçinin, Saimerlo kəndinin ictimai məktəbində 14 Aprelə həsr olunmuş tədbirdə iştirak edib və təşrif buyurmuş ictimaiyyəti Ana Dili Günü münasibətilə təbrik ediblər.



**Saqareco**

Bələdiyyə Meriyasının təşkilatçılığı ilə Saqareco Bələdiyyəsinin meri Avtandil Qulikaşvili Ana Dili Günü münasibətilə Saqareco 3 nömrəli dövlət məktəbində keçirilən gürcü xəttatlıq müsabiqəsində iştirak edib, iştirakçılarla görüşüb, onları Ana Dili Günü münasibətilə təbrik edib, uğurlar arzulayıb.

Müsabiqənin məqsədi gürcü yazısını və gürcü xəttatlığını, əlyazma mədəniyyətini və yaradıcılıq bacarıqlarını inkişaf etdirmək idi.

Müsabiqədə iki yaş qrupu üzrə 3 qalib seçiləcək və onlar bələdiyyə sədri tərəfindən təsis edilmiş mükafatlarla təltif olunacaqlar.



## BEYNƏLXALQ HƏYAT

### UKRAYNADA SUMI ŞƏHƏRİNƏ RAKETLƏR ATILIB, 30-DAN ÇOX DİNC SAKİN ÖLÜB

***Ukraynanın şimal-şərqindəki Sumı şəhərinə endirilən raket zərbəsi nəticəsində 30-dan çox dinc sakin həlak olub.***



Bu barədə Sumı merinin səlahiyyətlərini icra edən Artem Kobzar teleqramda məlumat verib.

*"Palm bazarının bu parlaq günündə cəmiyyətimiz dəhşətli facià yaşayıb. Düşmən dinc əhaliyə raket zərbəsi endirib. Təəssüf ki, 30-dan çox ölüm faktı artıq məlumdur"*, - deyə o qeyd edib.

Sumıda qurbanlar barədə məlumatı Prezident Aparatının rəhbəri Andrey Yermak da təsdiqləyib: *"Rusiya ordusu Sumı şəhərini raketlərlə vurub və dinc sakinləri öldürüb"*, - deyə o vurğulayıb.

### İSRAİL ORDUSU QƏZZADA ƏLAVƏ REYDLƏRƏ BAŞLAYIB



***İsrail Ordusu Qəzza zolağında əməliyyatları genişləndirir.***

Bu barədə İsrail Ordusunun mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, hazırda ölkənin quru qüvvələri Qəzzanın Dərac Tuffa bölgəsində əlavə reydlərə başlayır.

*"Əməliyyatın məqsədi ərazidə təhlükəsizlik nəzarətini və zonasını genişləndirməkdir. Hazırda qoşunlar onlarla terrorçunu məhv edib, onların infrastrukturunu və müşahidə məntəqələrini dağıdıb"*, - deyə məlumatda bildirilir. Əməliyyat zamanı İsrail hərbçiləri müəyyən marşrutlar üzrə mülki əhalinin döyüş bölgəsindən təxliyəsini təmin edir.

### ƏLCƏZAİR FRANSALI DİPLOMATLARA VAXT QOYDU: "48 SAATA ÖLKƏNİ TƏRK EDİN"

***Əlcəzair 12 fransalı diplomatı ölkədən çıxarmaqla hədələyib və onlara 48 saat vaxt verib.***



Bunu Fransanın xarici işlər naziri Jan-Noel Barro deyib.

*"Əlcəzair hakimiyyətindən bu çıxarılma tədbirlərindən imtina etmələrini xahiş edirəm... Əgər əməkdaşlarımızın geri göndərilməsi qərarı qüvvədə qalarsa, başqa çıxış yolumuz qalmayacaq və dərhal cavab verəcəyik"*,-deyə Barro vurğulayıb.

AFP-yə danışan diplomatik mənbəyə görə bu 12 nəfərin arasında Fransa Daxili İşlər Nazirliyinin bəzi əməkdaşları da var.

Qeyd edək ki, cümə günü Fransa prokurorluğu Əlcəzairin tanınmış bloqeri və hökumət tənqidçisi Amir Bukorsun 2024-cü ilin aprelində Parisdə "yoxa çıxması" ilə əlaqədar üç Əlcəzair vətəndaşını, o cümlədən bir konsulluq əməkdaşını rəsmi olaraq ittiham edib.

Bu ittiham Əlcəzair ilə Fransa arasındakı münasibətlərin həssas dövrünə təsadüf edir. Əlcəzair hakimiyyəti bu addımın son vaxtlar əlaqələrin düzəldilməsi cəhdlərini pozmaq məqsədi daşıdığını iddia edib.

"Amir DZ" adı ilə tanınan Bukors Əlcəzair hökumətinə qarşı çıxan məşhur sosial media fenomenidir və TikTok-da bir milyondan çox izləyicisi var.

O, 2016-cı ildən Fransada yaşayır və 2023-cü ildə ona siyasi sığınacaq verilib. Hüquqşünasının sözlərinə görə, o, 2024-cü ilin aprelində oğurlanıb və ertəsi gün sərbəst buraxılıb.

Əlcəzair isə onun mühakimə olunması üçün ölkəyə qaytarılmasını tələb edir. Bukors barəsində dələduzluq və terror ittihamları ilə bağlı doqquz beynəlxalq həbs qərarı çıxarılıb.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HANKI** *əvəz.* 1. İki və ya bir çox şeydən birini müəyyənləşdirəcək cavab almaq üçün sual kimi işlənir.

*Hansı əsərdən xoşunuz gəlir? Sitatları hansı məxəzlərdən götürmüsünüz? Hansı mərtəbədə yaşayırsınız? – Hansı qüvvələrin şəhərə hakim olması bəlli deyil idi.*

Çəmənzəminli.

2. Ayırıcı, müəyyənləşdirici sual kimi işlənir.

*Hansı böyükdür, hansı kiçik? Bunlardan hansı müdirdir, hansı müavin?* – [Məşədi İbad:] *Bir deyin görüm, xanım hansınızdır, qulluqçu hansınız?*

Ü. Hacıbəyov.

3.Bir şəxsin, ya şeyin keyfiyyəti, xüsusiyyəti, xassəsi haqqında sual bildirir.

*Hansı məziyyətinə görə onu bu qədər xoşlayırlar?*

*Söylə, şirinlikdə, hansı fidanda,*
*Hansı gülüstanda, hansı cahanda,*
*Ey yoldaş, ey qadın, sənin varın var?*

M. Müşfiq.

4. Bir şeyin əmələgəlmə vaxtı, ardıcıllığı haqqında sual kimi işlənir.

*Hadisə hansı ayda baş vermişdir? Siz hansı ildə anadan olmuşsunuz? – Bunu istiyirik bilək ki, aya bu papaqlar* [müsəlman papaqları] *hansı əsrdən və nə vaxt bu tövr bizim içimizdə adət olubdur?*

C. Məmmədquluzadə.

5. "Hər bir", "hər hansı", "hər hansı bir" mənasında işlənir. *Hansı adamı dindirsəniz, eyni cavabı eşidəcəksiniz. Hansı kitabı açsanız, tapa bilərsiniz.*

*Hankı səmtə, hankı yana,*
*Hey uçsam da, yuvam sənsən.*

S. Vurğun.

[Cahan Əsgərə:] *Hansı bəyin və ya tacirin qızını istəsən, gedim, sənə alım.*

Ü. Hacıbəyov.

//Eyni mənada əsasən inkar cümlələrində işlədilir. *Hansı şagird usta olmağa çalışmır?*

6. Qeyri-müəyyənlik bildirir.

*Bilmirəm, hansı ağzıgöyçək deyib ki, "insan əşrəfiməxluqatdır"?*

M. Hüseyn.

**Hansı ki** – təyin budaq cümləsini baş cümləyə bağlayan və baş cümlədə olan ismi budaq cümlədə əvəz edən bağlayıcı.

*Niyə cavab vermədin; o demaqoq hərifə? Hansı ki, srağagün; məni tənqid elədi?*

R. Rza.

**HANTÉL** *[alm.] idm.* Qısa dəstəklə birbirilə birləşmiş iki çuqun şardan ibarət gimnastika aləti (əzələləri inkişaf etdirmək üçün işlənir).

**HAP-GOP** *is.* Gurultulu, lovğa, lakin boş, əhəmiyyətsiz sözlər, hay-küy. *Hap-gopuna baxma, əlindən heç şey gəlməz.*

*Mən bacarsaydım əgər, yaxşı cilovlardım onu,*
*Baxmayın hap-gopuna, ömrü bitibdir, sonudur.*

S. Rüstəm.

**HARA** *sual əvəz.* 1. Hansı yer, hansı məkan, yaxud hansı istiqamət, hansı tərəf.

*Kitabları hara qoydu? Stulu hara apardın?*

[Sevil Gülüşə:] *Balaşdan soruşmamış hara gedə bilərəm?*

C. Cabbarlı.

2. Bədənin və ya bir şeyin hər hansı bir yeri. *Onun harası pisdir? Harasına gözəl deyirsən!*

3. **Haradasa** şəklində – naməlum yerdə, qeyri-müəyyən yerdə.

*Haradasa uşaq ağlayırdı. Qaraşın səsi çox zəiflədi, haradasa kəsilib qırıldı.*

M. İbrahimov.

**HARAM** *sif. [ər.]* 1. İslam dininin ehkamlarına görə yeyilməsinə, işlədilməsinə icazə verilməyən *(halal əksi). Haram mal bərəkət tutmaz.*

(Ata. sözü ).

*2. məc.* Zəhmətlə, əməklə, düz yolla qazanılmayan, əldə edilməyən.

*Çalış, sən həmişə öz əməyin ye,*
*Haram mal yeməyə alışma, dilim.*

"Abbas və Gülgəz".

**HARAMXOR** *sif. və is.* [ *ər.* həram və *fars.* xor – yeyən] Özgənin malına, şeyinə, puluna tamah salan; müftəxor.

Mustafa bəy:] *Hamınız haramxorsunuz, hamınız oğrusunuz!*

Ə. Haqverdiyev.

**HARAMZADƏ** *is.* [ *ər.* həram və *fars.* zadə] Fırıldaqçı, kələkbaz, hiyləbaz, bic, yaramaz, tülüngü.

[Murov:] *Haramzadələr, mənim əlimdən hara gedəcəksiniz?*

M. F. Axundzadə.

**HARAMZADƏLİK** *is.* Fırıldaqçılıq, kələkbazlıq, hiyləbazlıq, biclik.

*Dəstədə bir müsəlman görmürəm ki, ondan bir haramzadəlik və xəyanət baş verməmiş ola.*

C. Məmmədquluzadə.

**HARAY** 1. *nida.* Dad, aman, vay, dadfəryad, dad-fəğan.

*Haray, kim nə dilim var, nə dil anlayanım.*

Qövsi.

2. is. Qışqırıq, hay-küy, cığır-bağır, bağırtı səsi; qışqırıq-bağırıq.

*Mascidi doldurur haray, qışqırıq,*
*Qarğış, hədələmə, söyüş, fişqırıq.*

S. Vurğun.

**HARAY-HƏŞİR** *is.* Hay-küy, səs-küy. *Bir tərəfdə haray-həşirlə daş, qum daşınır, o biri tərəfdə qumla əhəng qarışdırılıb palçıq edilirdi.*

S. Rəhimov.

**Haray-həşir salmaq** – qışqırmaq, dad-fəryad qoparmaq, hayküy salmaq, qiyamət qoparmaq, mərəkə qoparmaq.

*Kimsə dedi: – Bir ovuc tut qurusundan ötrü haray-həşir salma, kişi!*

Ə. Abasov.

**HARIN** *sif.* 1. Yaxşı bəslənməkdən, yaxşı baxılmaqdan kökəlmiş, qızğınlaşmış, azğınlaşmış; tünd. *Harın dayça.*

[Xanlar:] *Nə qədər xam və harın at olsa,* [anam] *cilovunu dəstələyib belinə atılasıdır.*

Qantəmir.

2. *məc.* Qudurğan, azğın, həddindən artıq lovğa, özündənrazı, mütəkəbbir adam haqqında. *Harın qız.*

*Rüxsara xanım Kərbəlayı Səftərin tox və harın sifətini görüb, bir söz demədi, ətrafına göz gəzdirdi.*

T. Ş. Simurq.

**HARINLAMAQ** *f.* 1. Yaxşı bəslənməkdən, yaxşı qulluq edilməkdən kökəlmək, qızışmaq, harınlaşmaq.

*At bütün qışı töv-lədə xama bağlanıb, yeyib harınlamışdı.*

"M. N. Lətif."

2. *məc.* Qudurmaq, azğınlaşmaq, vəhşiləşmək, harınlaşmaq.

*Dəniz kimi kükrədilər,*
*dalğa kimi döş gərdilər,*
*Harınlamış polislərə*
*onlar yumruq göstərdilər.*

B. Vahabzadə.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

**მთისკენ გადავალი ცხოვრება (Mtisken qadavali tsxovreba)**
**Dağlara doğru yol alan həyat**

**გაზაფხულთან ერთად ბუნება იღვიძებს.** (Qazapxultan ertad buneba iğvidzebs) – **Baharla birlikdə təbiət oyanır.**

**იწყება თბილი დღეები, მინდვრებზე ბალახი იზრდება, ყვავილები იშლება.** (İtsğeba tbili dğeebi, mindvrebze balaxi izrdeba, ğvavilebi işleba) – **İsti günlər başlayır, çəmənlərdə otlar göyərir, çiçəklər açır.**

**ამ პერიოდში სოფლებში იგრძნობა განსაკუთრებული აქტიურობა და სიცოცხლე.** (Am periodşi sopelşi iqrdznoba qansakutrebuli aktiuroba da sitsotsxle) – **Bu dövrdə kəndlərdə xüsusi fəallıq və həyat canlanması hiss olunur.**

**ხალხი ემზადება მთაში წასასვლელად, სადაც მათ საქონელი და ცხვარი აჰყავთ.** (Xalxi emzadeba mtaşi tsasasvlelad, sadats mat sakoneli da tsxhvari ahğavt) – **İnsanlar mal-qaranı və qoyunları dağa aparmaq üçün hazırlaşırlar.**

**მთაში სუფთა ჰაერი და ნოყიერი საძოვრები ცხოველებისთვის საუკეთესო გარემოა.** (Mtaşi supta haeri da noğieri sadzovrebi çxovelebistvis sauketeso qaremoa) – **Dağda təmiz hava və bərəkətli otlaqlar heyvanlar üçün çox əlverişlidir.**

**ეს მნიშვნელოვნად ზრდის რძის პროდუქტების რაოდენობასა და ხარისხს.** (Es mnişvnelovnad zrdis rdzis produqtebis raodenobasa da xarisxs) – **Bu, süd məhsullarının həm miqdarını, həm də keyfiyyətini artırır.**

**განსაკუთრებით პოპულარულია მთაში დამზადებული ყველი, მაწონი და კარაქი.** (Qansakutrebid popularulia mtaşi damzadebuli ğveli, matsoni da karaqi) – **Xüsusilə dağda hazırlanan pendir, qatıq və yağ çox məşhurdur.**

**ოჯახები მთაში რამდენიმე თვეს ატარებენ.** (Ocaxebi mtaşi ramdenime tves atareben) – **Ailələr dağlarda bir neçə ay qalırlar.**

**მათ ყოველდღე ბევრი შრომა უწევთ – უვლიან პირუტყვს, წველიან რძეს და ამზადებენ პროდუქტებს.** (Mat ğoveldğe bevri şroma utsevt – uvlian pirutğvs, tselian rdzes da amzadeben produqtebs) – **Onlar hər gün çox zəhmət çəkirlər – heyvanlara baxırlar, süd sağırlar və məhsul hazırlayırlar.**

**მთის ცხოვრება რთულია, მაგრამ ბუნებასთან ჰარმონიული და სიმშვიდეა.** (Mtis tskhovreba rtulia, maqram bunebastan harmoniuli da simşvidea) – **Dağ həyatı çətindir, amma təbiətlə harmoniya və sakitlik hökm sürür.**

**ამ მიგრაციას კულტურული ღირებულებაც აქვს.** (Am miqratsias kulturuli ğirebulebats aqvs) – **Bu köçün mədəni dəyəri də var.**

**ახალი თაობას ეცნობა ტრადიციები და ცხოვრების ძველი წესი.** (Axal taobas etsnoba traditsiebi da tsxovrebis dzveli tsesi) – **Yeni nəsil adət-ənənələrlə və qədim həyat tərzi ilə tanış olur.**

**ეს ყველაფერი თაობიდან თაობას გადაეცემა და ინარჩუნებს თავის ფასს დღესაც.** (Es ğvelaperi taobidan taobas qadaetsema da inarçunebs tavis pass dğesats) – **Bütün bunlar nəsildən-nəslə ötürülür və bu gün də öz dəyərini qoruyur.**

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

*14 aprel 2025-ci il* **"SAKARTVELOS RESPUBLİKA"**

### İngiltərədə Şekspirin itmiş sonetasının nüsxəsi tapılıb

Oksford Universitetinin ingilis dili fakültəsindən doktor Lia Veronese 17-ci əsrə aid şeirlər toplusunda dünya şöhrətli dramaturq Uilyam Şekspirin "Sonet 116" əsərinin nadir əlyazma nüsxəsini aşkar edib. Bu barədə SciTechDaily nəşri yazır.

Nəşr bildirir ki, bu, sonetin məlum olan yalnız ikinci əlyazma nüsxəsidir. Doktor Veronese əlyazmanı Oksforddakı Bodleian Kitabxanasında araşdırma zamanı tapıb. Sonet müxtəlif müəlliflərin əlyazma şəklində ədəbi əsərlərinin toplusu idi ki, bu da erkən müasir dövrdə poetik mübadilənin ümumi forması idi.

"Əlyazmanı vərəqləyəndə bu şeir mənə "Sonet 116"nın qəribə variantı kimi təsir etdi. Siz kataloqu itirəndə o, açıq-aydın Şekspirin yaradıcılığının bir parçası idi, amma müəllif haqqında heç nə deyilmirdi. Kataloqun orijinal təsvirində Şekspirin olmaması bu şeirin diqqətdən kənarda qalmasının səbəbi ola bilər " – deyə tədqiqatçı izah edib.

*9-15 aprel 2025-ci il* **"TBİLİSSKAYA NEDELYA"**

### Vake Parkının Bərpası tenderi üzrə müraciətlərin qəbulu başa çatıb



Tbilisi meriyası 25 fevral 2025-ci ildə Vake Parkının bərpası üçün üç il ödənilmə şərti ilə 47 milyon lari dəyərində yeni tender elan etmişdi.

Tenderin qalibi təfərrüatların müəyyənləşdirilməsindən və paytaxt meri ilə aparılan danışıqlardan sonra elan olunacaq.

Tender çərçivəsində şirkət üç il ərzində parkın məşhur görünüşünü və fontanlarını bərpa etməli, yeni işıqlandırma sistemi yerləşdirməli, drenaj və su təchizat sistemini yeniləməlidir. Eləcə də videonəzarəti quraşdırmalıdır.

Tenderin şərtlərinə əsasən, şirkətin istirahət zonalarının və fontanların tənzimlənməsi və işığlandırma sistemlərinin quraşdırması üzrə təcrübəsi olmalıdır.

Tender ilə bağlı müraciət edən və işi 31,9 milyon lariyə yerinə yetirməyi təklif edən yeganə şirkət "Dağma" şirkəti olub.

Tbilisi meriyası sonuncu dəfə parkın bərpasını 2022-ci ildə həyata keçirib. Yenilənmiş fontanın açılmasından bir gün sonra oraya düşən topu çıxartmaq üçün enən üç yeniyetməni elektrik cərəyanı vurub. Nəticədə onlardan biri, 13 yaşlı qız, vəfat edib.

İstintaqın əldə etdiyi məlumata görə, fəhlələr elektrik naqilini izolyasiya etməyib, ekspertlər və yoxlamaya cavabdeh şəxslər, o cümlədən şirkətin direktoru və meriya nümayəndəsi işi və təhlükəsizliyi yoxlamayıblar.

Məsələ ilə bağlı doqquz şəxs saxlanılıb. Hal-hazırda onlar məmur səhlənkarlığı və tikinti işləri zamanı təhlükəsizlik qaydalarına əməl etməməkdə təqsirli bilinib.

Vake parkı Çavçavadze prospekti, Mişveladze küçəsi və Nino Tsvedadze adına yoxuş arasında yerləşən Tbilisi şəhər parkıdır. Parkın yerləşdiyi rayonun adı da "Vake"dir.

"Vake" gürcü dilindən "düzənlik" kimi tərcümə edilir və park doğrudan da, düzənlik ərazidə yerləşir.

Sözügedən park 1946-cı ildə açılıb. Memar K. Dqebuadzenin və dendroloq E.Tsitsişvilinin layihəsinə əsasən, partlayış işlərindən istifadə etməklə ərazinin qurudulması və planlaşdırılması, torpaq örtüyünün yaradılması, yüz minlərlə iynəyarpaqlı ağaclar, meyvə ağacları və kollar əkilmişdir. Parkın yaradılması Tbilisidə ən böyük abadlıq layihəsi olub.

Sovet dönəmində park "Qələbə Park"ı adlanırdı. Burada 28 metrlik Qələbə heykəli ilə Şöhrət memorial kompleksi yaradılıb (kompleks 1981-ci ildə memarlar V. Aleksi-Mesxişvili və K. Naxutsrişvili, heykəltəraş Q. Oçiauri tərəfindən yaradılmışdır).

*16 aprel 2025-ci il* **"KVİRİS PALİTRA"**

### Trampın sülh planı alt-üst olub?! - Müharibə çox güman ki, şiddətlənəcək və qanlı olacaq (İxtisar edilib)

Böyük Pasxa Bayramı - 20 aprel yaxınlaşır, tezliklə aprelin 29-u - Trampın prezidentliyinin 100 –cü günü də gələcək, lakin ABŞ-nin 47-ci prezidenti böyük səylərə baxmayaraq, nəinki Rusiya-Ukrayna müharibəsini tamamilə bitirə, hətta onu müvəqqəti olaraq dayandıra bilmir...

Bu, çox təəssüfləndirici, lakin tamamilə gözlənilən haldır, çünki Tramp və onun administrasiyasının hesablamaları və ümidləri əvvəldən qeyri-real idi; bu, Rusiya ilə Ukrayna arasında ölüm-dirim qarşıdurmasında səriştəsizlikdən irəli gəlirdi və ya prezident Tramp nədənsə onun Zelenski və Putini böyük siyasi təzyiq vasitəsilə atəşkəs imzalamağa məcbur edə biləcəyinə inanması ilə bağlıdır.

Bu, baş verməyib və yaxın gələcəkdə də olmayacaq, çünki qarşı tərəflərin məqsəd və tələbləri kökündən ziddiyyətlidir - müharibənin bu mərhələsində Moskva Kiyevdən Luqansk, Donetsk, Zaporojye və Xerson vilayətlərində (hətta onların işğal olunmamış hissələrində) özünün qeyd-şərtsiz "möhkəmlənməsini" istəyir, Kiyev isə tam əraziyə ümidini itirmir.

Belə bir vaxtda danışıqlar aparmaq çox çətindir, xüsusən də Rusiya Ukrayna şəhərlərini ballistik və qanadlı raketlərlə amansızcasına bombalamağa davam etdiyindən, Ukrayna da kamikadze dronlarla Rusiyanın enerji obyektlərinə tez-tez hücumlardan geri qalmır.

ABŞ prezidentinin Ukrayna üzrə xüsusi nümayəndəsi general Keyt Kelloqun Britaniyanın "The Times" nəşrinə verdiyi müsahibədə amerikalı generalın Avropa "mavi dəbilqəlilər"in Dnepr çayının qərbində yerləşdirilməli olduğunu, rusların şərqdə qalacağını, Ukraynanın isə İkinci Dünya Müharibəsindən sonrakı Berlin kimi parçalanacağı iddiası bir növ mini qalmaqala səbəb olub.

Amerikanın xüsusi nümayəndəsinin belə bir fikrinin Kiyevdə mənfi reaksiyaya səbəb olacağını başa düşmək olar və general Kelloq da tərəddüd etmədi – "Britaniya nəşri fikrimi təhrif etdi. Mən atəşkəs olacağı təqdirdə Avropa sülhməramlı qüvvələrinin Dnepr çayının şərq sahilinə yerləşdiriləcəyi, Ukrayna ordusunun yenidən cəbhə xəttinin şərqində Dneprin sol sahilinə nəzarət edəcəyi və 15 km-lik bufer zonasının (cəbhənin hər iki tərəfində ayrı-ayrılıqda – cəmi 30 km-lik) yaradılması planından danışırdım. Rusiya işğalçı qüvvələri cəbhə xəttinin şərqində qalacaqdı", - deyə o fikrini aydınlaşdırıb.

Amerikalı generalın bu sülh planı Rusiya ilə Ukrayna arasında üçillik müharibə nəticəsində bu gün yaradılmış reallığı az-çox əks etdirir:

Birincisi - Ukrayna nə Qərbin köməyi ilə, nə də təkbaşına Putinin ordusunu onsuz da işğal olunmuş Ukrayna torpaqlarından qovmağa qadir deyil;

İkincisi - hazırkı mərhələdə Kiyevin əsas vəzifəsi işğalçı Rusiyanın Ukraynanın yeni ərazilərini işğal etməsinə imkan verməməkdir;

Üçüncüsü - əgər Avropa "sülhməramlıları" həqiqətən də Dnepr çayının qərbində yerləşdirilsə və oradan ukraynalı döyüşçüləri "azad etsəydilər", Ukrayna ordusunun Dnepr çayının şərqində cəmləşməsi artar, bu da Ukraynanın müdafiə qabiliyyətini gücləndirərdi.

Ancaq bütün bunlara bir neçə səbəbə görə nail olmaq çox çətindir:

Birincisi - Ukraynada sülhməramlı əməliyyata başlayacağı təqdirdə hansı NATO və Aİ ölkəsinin hansı hərbi qüvvələr və maliyyə ayıracağı ilə bağlı Avropa ölkələri arasında hələ də birlik yoxdur;

İkincisi, Rusiya Ukraynada avropalı "sülhməramlılar"ın yerləşdirilməsinin qəti əleyhinədir. O, bunu Ukraynanın NATO-ya daxil olması ehtimalı ilə eyniləşdirir;

Üçüncüsü, Avropanın siyasi liderləri bəyan edirlər ki, Amerikanın maddi-texniki və kəşfiyyat dəstəyi olmasa, onlar Ukraynada sülhməramlı missiyaya başlamaqda çətinlik çəkəcəklər və Vaşinqton birmənalı şəkildə cavab verir ki, onlar Amerikanın köməyinə ümid etməməlidirlər.

Bütün bunlar yaxın gələcəkdə Ukrayna müharibəsində hətta müvəqqəti atəşkəsin əldə olunması ehtimalını çox aşağı salır; əksinə, Rusiya-Ukrayna müharibəsinin tezliklə şiddətlənəcəyi və daha da qanlı olacağı görünür.

Müəllif: **İrakli Aladaşvili.**

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# İNSAN SAĞLAMLIĞI ÜÇÜN FAYDALI QİDA MƏHSULLARI

### SARIMSAQ, HİL, MİXƏK

*Əvvəli ötən sayımızda*



**Hil**

Latınca "amomum" adlanan hil zəncəfilkimilər fəsiləsinə aid və uzunluğu 2-4 metrə çatan çoxillik ot bitkisidir. Uzunluğu 60 sm və eni 8 sm-ə qədər olan geniş yarpaqları var. Ağ və yasəmən rənqli güllərə sahibdir. Hilin meyvələri sarımtıl - yaşıl qabıqlı və qırmızımtıl-qəhvəyi toxumludur.

Hilin vətəni Hindistanın cənubudur. Avropalıların Malabar Sahilini ziyarət etməsindən sonra hil Avropada tanındı. Bu səbəblə bitki Malabar hili kimi tanınıb. Günümüzdə hil Fransa ərazisi olan və Hind Okeanında yerləşən Renyuon adasında, Hind-Çin yarımadasında və Mərkəzi Amerikada becərilir. Hazırda hil istehsalında lider Latın Amerika ölkəsi Qvatemaladır.

**Hil ən zərif ədviyyatlardan biridir.** Hil əsasən qənnadı məmulatların ədviyyatlandırılmasında istifadə olunur. Milli mətbəximizdə hill mürəbbələrə və bəzi şiriniyyatlara vurulur. Eləcə də süfrələrimizin bəzəyi olan çaya da əlavə ləzzət verən hildir.

Bu əsrarəngiz ədviyyat sadəcə ləzzətə və xoş ətrə yox, eləcə də öz tərkibinə görə insan orqanizmi üçün faydalı xüsusiyyətlərə malikdir. Hilin toxumlarında 2-8% efir yağları var ki, bunlara terpenlər (limonen və sabinen), həmçinin terpen spirti α-terpineol, sineol və terpinil asetat daxildir. Eləcə də hilin tərkibində kalsium, sink, natrium, dəmir, maqnezium və kalium kimi metallar və fosfor kimi qeyri-metallar da var . Qeyd etmək lazımdır ki, hilin tərkibindəki təbii sinkin miqdarı digər ədviyyatlardan daha çoxdur. Hil vitaminlərlə də zəngindir. Tərkibində C, B1, B2, B3 vitaminləri var. Hilin faydaları 3000 il qabaq qədim təbiblərə məlum idi. Müasir tədqiqadlar müəyyən edib ki, hil iltihab əleyhinə stimullaşdırıcı təsirə malikdir - zehni, ürəyi stimullaşdırır və sevinc hissi verir. Həm də hil astma, öskürək, bronxit və miqren zamanı iştahaçıcı kimi tövsiyə olunur. Bədəndən müxtəlif zəhərləri və toksinləri çıxarmağa kömək edir. Ədviyyat sinir sisteminə də faydalı təsir göstərir: əhval-ruhiyyəni yaxşılaşdırır və emosional rahatlanmağa kömək edir. Həzmi yaxşılaşdırmaq üçün hil tez-tez bitki çaylarına daxil edilir.

Əgər hilin və darçının faydalarını müqayisə etsək, məlum olar ki darçın daha çox karbohidrat və lif, kardamon isə daha çox yağ və zülal ehtiva edir. Eləcə də, darçının tərkibində kalsiumun səviyyəsi daha yüksəkdir. Hil isə mineral tərkibi baxımından darçından daha zəngindir. Son tədqiqatlar əsasında məlum olub ki, faydalı təsiri əldə etmək üçün gündə ən az 8-10 hil meyvəsi istehlak etmək lazımdır. Hilin istehlakı metabolik sindrom və diabetə kömək edir, həmçinin ağız, ürək və qaraciyər sağlamlığını yaxşılaşdırır.

**Amma unutmayaq ki, hilin faydalarından başqa zərərləri də var.** Hilin həddən artıq istehlakı bəzi insanlarda allergik reaksiyalara, o cümlədən dəri səpgilərinə və nəfəs almaqda çətinliyə səbəb ola bilər. O, həmçinin ishal və qarın ağrısı kimi mədə-bağırsaq pozuntularına səbəb olur. Böyük dozalar da hipertoniya və ürək dərəcəsinin artmasına qətirir. Hamilə və körpə əmizdirən qadınlar, həmçinin ülseratif xəstəlikləri olan insanlar ədviyyatdan sui-istifadə etməməlidirlər. Fərdi dözümsüzlüyü nəzərə alın, çünki ədviyyatın özünə-məxsus dadı və ətri var və bu, hər kəsə uyğun olmaya bilər.



# RİYAZİYYAT MÜƏLLİMİNİN POETİK DUYĞULARI

Bu günlərdə bir hörmətli müəllim yoldaşım axşamüstü məni evinə çay süfrəsinə dəvət etmişdi. Masa arxasında dörd nəfər oturmuşdu. Oturanlardan birini tanıya bilmədim. Ev sahibi Nazim müəllim məni tanımadığım qonaqla tanış etdi. „Adı Mövlüd, soyadı Nəsibovdur."-dedi. Sonra söhbət əsnasında öyrəndim ki, 4 il bir yerdə Nazim Qocayevlə tələbəlik həyatı keçirib, hər ikisi 1983-cü ildə N. Tusi adına ADPU-nun riyaziyyat fakültəsini bitirib.



Mövlüd müəllim əslən Bolnisi rayonunun Kvemo Bolnisi (Kəpənəkçi) kəndindən olmasına baxmayaraq, institutu bitirəndən sonra təyinatla Balakən rayonunun Talalar kəndində əmək fəaliyyətinə başlayıb və bu günə kimi də Balakən rayonunda məskunlaşıb. Ailəlidir, 3 qızı, bir oğlu var. Ona yaradılan şəraiti nəzərə alaraq oranı özünə ikinci vətən seçib, hal-hazırda Talalar kəndinin daimi sakinidir. İndiyədək həm tələbə yoldaşı, Qardabaninin Qaracalar kəndindən olan Nazim müəllimlə, həm də böyüyüb boya - başa çatdığı Kvemo Bolnisi (Kəpənəkçi) kəndi ilə əlaqəsi vardır.

Mövlüd müəllim işlədiyi müddətdə peşəkar riyaziyyat müəllimi kimi Balakən rayonunda ad-san qazanıb. Onun dediyinə görə, şahmatla da məşğul olur, yarışlarda iştirak edir, hazırda şahmat üzrə ustalığa namizəddir; həm də şeir həvəskarıdır, boş vaxtlarında şeir yazmağı sevir. Böyük alman riyaziyyatçısı P. V. Veyerştross deyirdi ki, qəlbən şair olmadan riyaziyyatçı olmaq mümkün deyil. Mövlüd müəllim də şair təbiətli, poeziya həvəskarı olan riyaziyyatçıdır. Onun şeirləri Azərbaycanın müxtəlif mətbuat orqanlarında „Balakən-Qax" almanaxında Nikbin təxəllüsü ilə dərc olunub.

Mövlüd müəllimlə söhbətimiz mənə xoş təsir bağışladı, hiss etdim ki, çox səmimi insandır. Məclisimizdə duzlu-məzəli söhbətləri, dedikləri şeirləri bizi valeh etmişdi. Şeirlərinin xoşuma gəldiyini bildirdim və xahiş etdim ki, bir neçə şeirini „Gürcüstan" qəzetinə təqdim etmək üçün versin. Məmnuniyyətlə razılaşıb mənə bir neçə qoşma verdi. O, klassik qoşma ənənələrinə uyğun şəkildə şeirlərində öz duyum tərzinə uyğun olaraq fikirlərini bədii lövhələrdə əks etdirməyə çalışmışdır. Ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Hörmətli redaksiya, Mövlüd müəllimin bir neçə şeirini sizə göndərirəm. Məsləhət bilsəniz, dərc etməyinizi xahiş edirəm.

**Hörmətlə: Sərxan Səfərov.**

### Öləydim

İllərdi görmürəm bizim dağları,
Bir də o yerləri gəzib öləydim.
İçib buz suyundan, dadıb qarından,
Güllərin ətrini duyub öləydim.

Olmuşdum qonağı neçə elinə,
Düşərdim çiçəklər, güllər selinə,
Bir türfə gözəlin siyah telinə,
Laləni, nərgizi düzüb öləydim.

Sıldırım yamaclar sirli tamaşa,
İnamla arxalan hər qaya-daşa,
O məğrur qartalla verib baş-başa,
Zirvədə vüqarla süzüb öləydim.

Dumanlar dağlara çəkəndə pərdə,
Mən necə tablayım həsrətlə dərdə.
"Səyalı bulağı" tökülən yerdə,
Əlimlə məzarmı qazıb öləydim.

Fikrim, xəyallarım düşübdü xəstə,
Çırpınır, çalxanır sanki qəfəsdə.
Nikbinəm, əyləşib bir çeşmə üstə,
Dağlara dərdimi yazıb öləydim.

### Borçalı

Demək nə lazımdır, hər kəsə bəlli,
Həmişə mərd olub, mərddi Borçalı.
Vüqarlı dağ kimi möhkəm dayanıb,
Düşmənin önündə səddi Borçalı.

Başkeçid yaylağı zirvəsi duman,
Zümrüd bulaqları canlara dərman.
Nanəcib kəslərə o verməz aman,
Alçağa, satqına sərtdi Borçalı.

Şairə əzizdir hər qaya, hər daş.
Taparsan burada sən neçə sirdaş.
Gələndə görərsən, ay qonaq qardaş,
Bir cənnət məkandı, yerdi Borçalı.

O, qəmi, kədəri bölər tən yarı,
Qəlbindən yox edər boranı, qarı.
Dinləsən Əmrahı, sən Kamandarı,
Deyərsən açılmaz sirdi Borçalı.

Ustad Saraclısı, Ağacanı var,
Abbası, Osmanı, Zəlimxanı var.
Şair kəlməsinin bircə sanı var,
Əzəldən pir olub, pirdi Borçalı.

### Bəsimdi

Yazılsın hər şeirim ana dilində,
Səslənsin avazla, sazın telində,
Öz doğma yurdumda, doğma elimdə,
Bir söyüd kölgəsi bəsimdi, vallah.

Oxşasın qəlbimi meh də, külək də,
Uçsun başım üstə tərlan, kəklik də,
Bir yaşıl çəməndə, sıx meşəlikdə,
Çeşmənin nəğməsi bəsimdi, vallah.

Buz kimi suyudur canın dərmanı,
Təbiət insanın olub loğmanı,
Neylərəm kababı, aşı, dolmanı,
Cincilim kətəsi bəsimdi, vallah.

Ayrıldım vətəndən, qaldım uzaqda,
Sözlərim söylənir dildə, dodaqda,
Bu şaxlı-budaqlı palıdın altda,
Bir kasıb süfrəsi bəsimdir, vallah.

Ay Nikbin, əlindən atma qələmin,
Arif məclisində çəkilər ismin.
Bir çeşmə üstündə nazlı sənəmin,
Telinin əsməsi bəsimdir, vallah.

**Mövlud Nikbin.**

# SEVGİ SİMFONİYASI

## (OLMUŞ ƏHVALAT)

Mayın axırları idi. Balaca baltanı itilədim və bağa sarı getdim. İstəyirdim ki, pomidor şitilləri üçün ordan-burdan paya kəsim. Çayın daşlı yolu ilə gedib otlu, kollu yola girdim.

Deyirlər qorxu cana faydadır, canıma qorxu düşmüşdü. Təsəlli olmaq üçün siqaret yandırdım, qəfildən xışıltı eşitdim, otlar yırğalana-yırğalana mənə sarı gəlirdi. Xoşbəxtlikdən, iri daş parçası gördüm, baltanı hazır vəziyyətdə tutaraq daşın üstündə oturdum, qorxudan tüklərim biz-biz olmuşdu, özümə söydüm: " A belə filan oğlu, niyə bu yolu seçdin, çəpərlərin arası ilə gələ bilərdin", - dedim.

Oturmuşam, qorxmuş halda gözləyirəm. Otlar yenə yırğalandı və təxminən beş metr məndən aralı, dar cığırda ağır-ağır sürünərək fısıldaya-zingildəyə, alabəzək, günəştək qırmızı ilan göründü, o quyruğu üstə qalxdı, insanın qanını donduran səslə bir də fısıldadı. Elə bu an cığırın o biri başından otlar daha da sürətlə yırğalandı və bu ilandan iyirmi santimetrə qədər gödək olan alabəzək ilan şütüyüb cığıra çıxdı və mən valehedici, qəribə bir hadisənin şahidi oldum.

Erkək (birinci ilan mütləq erkək ola bilərdi) şütüyüb ikincinin yanına gəldi, başını başına sökədi, dilini ağzına yeritdi, bir-birinə elə sarmaşdılar ki, elə bil bir bədən oldular. Bir dairə əmələ gətirərək sarmaş-dolaş yerə yıxıldılar; bu dairə mənə qırmızı günəşi xatırlatdı.

Balta əlimdən düşmüşdü. Səs onları ayıltdı. Bir saniyə ərzində quyruğu üstə qalxdılar, erkək dişinin boğazına sarıldı, mənə tərəf çevrildilər. Elə bil, iki əlin barmaqları idilər, başlarını dik tutub boz gözləri ilə mənə baxırdılar.

Artıq qorxmurdum, ikinci siqareti yandırdım, tüstünü onlardan kənara buraxdım, bilirdim ki, onlar tüstüdən xoşlanmırlar.

Beləcə sarmaşıb dururdular və mənə baxırdılar; baxırdılar qorxu dolu, amma xoşbəxt, məmnun gözlərlə.

Sarmaşıb öpüşəndən sonra, əmin oldular ki, mən insan - onların qəddar düşməni, onlara dəymirəm, gəldikləri cığırla hər biri öz yolu ilə könülsüz, beli sınmış kimi sürünüb getdilər. Çünki mən onların sevgisinə, daha da çox vaxt keçirməsinə, bir-birindən həzz almaqlarına mane olmuşdum. Mən, insan, insanlar üçün qadağan olan sevgi labirintlərinə baxdım.

Bu hadisədən sonra qorxmadan tez-tez bağa sarı addımlayıram, istəyirəm onları yenə görəm və sevgi simfoniyasına qulaq asam.

Bunu nə qələmlə, nə də fırça ilə təsvir etmək mümkün deyil. Bunu ancaq gözlərinlə görməlisən.

**Aleksandre Beridze,**
**Tetritskaro, "Didqori" qəzeti, 16.08.1990-cı il**
**Gürcücədən çevirdi: Gülyaz Məmmədova.**
**Marneuli, Qızılhacılı 2 saylı ictimai məktəbin gürcü dili müəllimi.**

**P. S.** Bu hekayəni hörmətli müəllim Aleksandre Beridze yazmışdır. Onun xatirəsi mənim üçün çox əzizdir, uzun illərdir qəzeti saxlamışdım. Bir gün əlimə keçdi və belə qərara gəldim ki, tərcümə edim.

**Hörmətlə: Gülyaz Məmmədova.**

# MÜASİR GƏNCLƏR VƏ BƏDİİ ƏDƏBİYYAT

Bədii ədəbiyyat insan mədəniyyətinin və dünyagörüşünün bir aynasıdır. Müasir gənclər bu mirasa necə baxır? Onların həyatında bədii ədəbiyyat nə dərəcədə əhəmiyyətlidir və hansı nümunələr onların marağını daha çox çəkir?

Müasir gənclər çox zaman texnologiyanın təsiri altında böyüyürlər və bu, onların oxuma vərdişlərinə də təsir göstərir. Bununla belə, bədii ədəbiyyat gənclərə fərqli dünya görüşləri təqdim etməklə düşüncə qabiliyyətlərini genişləndirir. Məsələn:

**1.Klassik əsərlər**: Dostoyevski, Tolstoy və ya Şekspir kimi yazıçıların əsərləri gənclər arasında hələ də maraqla oxunur. Bu əsərlər həyatın dərin mənalarını araşdırmağa imkan verir.

**2.Müasir əsərlər:** Müasir dövrdə yazılan əsərlər, məsələn, Haruki Murakami və ya Cüdc Caranın (George R.R. Martin) əsərləri, gənclərin maraq dairəsinə uyğun mövzuları əhatə edir.

Bədii ədəbiyyat gənclərin psixoloji və emosional inkişafında mühüm rol oynayır. Misallar:

**Empatiya və anlama:** Qəhrəmanların çətinlikləri və duyğuları gənclərə empatiya qurmağı öyrədir.

**Yaradıcılıq:** Yazıçılar tərəfindən təsvir edilən dünyalar gəncləri öz fantaziyalarını genişləndirməyə ruhlandırır.

**Düşüncə tənqidi:** Ədəbiyyatın kompleks mövzuları gənclərin analitik düşüncəsini gücləndirir.

**Statistika və Faktlar:** Araşdırmalar göstərir ki: 18-25 yaş arasındakı gənclərin 60%-i əsasən rəqəmsal formatda kitab oxuyur. Populyar kitab siyahılarında bədii əsərlər üstünlük təşkil edir, məsələn, Coan Roulinqin "Harri Potter" seriyası.

Kitab klubları və qiraət dərnəkləri müasir gənclər arasında sosial fəaliyyət olaraq məşhurlaşır.

Gənclərin bədii ədəbiyyata marağını artırmaq üçün cəmiyyət və təhsil sistemi tərəfindən dəstək lazımdır.

**Məktəblərdə layihələr:** Gəncləri bədii əsərlər yazmağa təşviq edən tədris proqramları yaradıla bilər.

**Rəqəmsal İnteqrasiya:** Ədəbiyyatın rəqəmsal platformalara inteqrasiyası gənclər üçün daha cəlbedici ola bilər.

Müasir gənclər və bədii ədəbiyyat arasındakı əlaqə mürəkkəb və çoxşaxəlidir. Bununla belə, bədii ədəbiyyatın gənclərə təqdim etdiyi geniş imkanlar onların fərdi və mədəni inkişafına töhfə verir. Gəncləri bədii ədəbiyyata yaxınlaşdırmaq üçün cəmiyyət və ailə səviyyəsində birgə addımlar atılmalıdır.

**Sayalı İsmayılova,**
**Bolnisi, Naxiduri (Arıxlı) ictimai məktəbinin baş müəllimi .**

# ÖLMƏZ ƏMƏLLƏRİ DÜNYANI GƏZİR




"Azərbaycanla Gürcüstanın dostluğu tarixin sərt sınaqlarından keçərək bu günə qədər gəlib çatıb. Tarixin hansı səhifəsini açıb oxusaq, bu iki xalqın qəhrəmanlıq yolları özünü göstərər. Bu dostluğun bugünkü nişanəsi Bakı – Tiflis - Ceyhan neft və qaz kəmərlərinin inşasında daha böyük qurur yaradıb. Bütün dünya bu böyük layihəni alqışlayır, Heydar Əliyevi fəxrlə yad edir, ona rəhmət diləyir. Bu, kiçik şeirimi o dostluğa ünvanlayıram.

Arzulu, əməlli iki dövlətin,
Dostluğu silinməz izlərdə qalıb.
Müxənnətin gözü düzü düz görməz.
Onun bəd baxışı gözlərdə qalıb.

Qədim dostluq kişilərdən qalıbdı,
Çonquru, sazını birgə çalıbdı,
Müxənnəti yaman hala salıbdı,
Arxiv yaddaşında, sözdə qalıbdı.

Yadigarov bəlli vətən balası,
Xudu bəydir Borçalının aynası,
İgid olub o nəsillər, tayfası,
Onların zor günü dizlərdə qalıb.

O dostluğun simvoludur əməllər,
Qoşa gedən, qoşalaşan kəmərlər,
Dövlətlər də alıb bir çox nəmərlər,
Sevinc nişanəsi üzlərdə qalıb.

Mərhum Heydər baba tez çatdı dada,
Yeganə ad qoydu bütün dünyada,
Ələddin, tərifin azdır o ada,
Ölməz əməlləri bizlərdə qalıb.

**Ələddin Danaçıyev,**
**Tsalka, Ərcivan - Sarvan kəndi.**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ




**18 aprel**

•1901— Elene Axvlediani, gürcü rəssam, qrafika rəssamı, teatr və kino dizayneri, anadan olub.

•1906—San-Fransisko şəhərində baş verən 8.3 bal gücündə zəlzələ nəticəsində 3,000-dən çox insan həlak olub.

•1955—Nobel mükafatçısı, məşhur fizik Albert Eynşteyn vəfat edib. O, nisbilik nəzəriyyəsinin müəllifidir və məşhur $E = mc^2$ düsturunu irəli sürmüşdür. 1921-ci ildə Nobel Fizika Mükafatına layiq görülüb. Bu mükafatı nisbilik nəzəriyyəsinə görə deyil, fotoeffektin izahına görə almışdır.

•1982—Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü (UNESCO tərəfindən təsis olunub,).

•Zimbabve (Cənubi Afrikada dövlət) — Müstəqillik Günü

**19 aprel**

•1775—ABŞ-nin müstəqillik savaşı (Amerika İnqilabı) Lexinqton və Konkord döyüşləri ilə başlayıb.

•1824 — Corc Bayron, İngiltərə şairi, anadan olub. XIX əsr ədəbiyyatının ən parlaq və nüfuzlu simalarından biridir.

•1907—Əfrasiyab Bədəlbəyli, Azərbaycan bəstəkarı, anadan olub. O, həmçinin Azərbaycanın ilk baletinin müəllifi kimi tanınır,

•1987—Mariya Şarapova, Rusiya tennisçisi, anadan olub. Rusiyalı sabiq peşəkar tennisçi beşqat "Grand Slam" turnirinin qalibi olmuşdur.

**20 aprel**

•1889 — Almaniya diktatoru, Nasist Partiyasının (NSDAP) lideri və 1933–1945-ci illərdə Almaniyanın kansleri Adolf Hitler anadan olub.

•1902 — Pyer və Mariya Küri radiumu kəşf edib. Mariya Küri, iki dəfə Nobel mükafatı qazanmış ilk qadın alimdir

•1916—**Nəsibə Zeynalova, Azərbaycan aktrisası, anadan olub.**

• Çin — Milli Kosmos Günü

**21 aprel**

•753 e.ə. — Əfsanəyə görə, Roma şəhərinin əsası Romul tərəfindən qoyulub.

•1910 — Mark Tven, ABŞ yazıçısı, vəfat edib. O, "Tom Soyerin Macəraları" və "Heklberri Finnin Macəraları" əsərləri ilə tanınır.

•1960—Braziliyanın paytaxtı rəsmi olaraq Rio-de-Janeyrodan Braziliyaya köçürülüb.

• Roma — **Şəhər Günü**

•Dünya Yaradıcılıq və İnnovasiya Günü

**22 aprel**

•1724 — İmmanuel Kant, Almaniya filosofu, anadan olub.

•1870 — Sovet lideri Vladimir Lenin anadan olub.

•1928—**Elguca Amaşukeli, gürcü heykəltəraşı , anadan olub.**

•1970—ABŞ-də ilk Yer Günü (Earth Day) qeyd olunub.

**23 aprel**

• 1564—İngilis dramaturq Uilyam Şekspir anadan olub. O, "Hamlet", "Romeo və Cülyetta", "Otello", "Maqbet" kimi ölməz faciələrin və çoxsaylı komediyaların müəllifidir.

• 1616—Şekspir və Miguel de Servantes eyni gündə vəfat ediblər.

• Ümumdünya Kitab və Müəllif Hüquqları Günü

• Türkiyə — Milli Suverenlik və Uşaq Bayramı

**24 aprel**

•1731 — Daniel Defo, İngiltərə yazıçısı, vəfat edib. O, "Robinzon Kruzo" adlı məşhur romanı ilə tanınır ki, bu əsər ilk ingilis romanlarından biri hesab olunur.

• 2013 — Bangladeşdə Rana Plaza binasının çöküşü nəticəsində 1,100-dən çox insan həlak olub.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## ELQUCA AMAŞUKELİ



***Gürcü rəssam və heykəltəraş, SSRİ xalq rəssamı (1988). Gürcüstan Rəssamlar İttifaqının sədri (1981-1996), Tbilisinin fəxri vətəndaşı (1981).*** Gürcüstanın tanınmış heykəltəraşıdır və ən çox Tbilisinin simvolu olan Kartlis Deda ("Gürcü Anası") heykəlinin müəllifi kimi tanınır.

Orta təhsil aldıqdan sonra 1946-cı ildə Tbilisi Rəssamlıq Akademiyasının Heykəltəraşlıq fakültəsinə daxil olub. Akademiyanı bitirdikdən sonra o, aspiranturada təhsilini davam etdirib, burada dissertasiyasının mövzusu Vaxtanq Qorqasalının abidəsinin layihəsi olub. 1955-ci ildə Tbilisi Rəssamlıq Akademiyasını bitirib. 1958-ci ildə Tbilisinin banisi Vaxtanq Qorqasalinin heykəlinin yaradılması müsabiqəsində iştirak edib və birinci mükafata layiq görülüb. Abidə Tbilisinin Metexi meydanında ucaldılıb.

"Gürcü Anası" heykəli 1958-ci ildə Tbilisin 1500 illik yubileyi münasibətilə Sololaki təpəsində ucaldılıb. Alüminiumdan hazırlanmış 20 metr hündürlüyündəki bu qadın fiquru Gürcü milli geyimində təsvir olunub. Heykəlin bir əlində dostlara təqdim etmək üçün şərab piyaləsi, digər əlində isə düşmənlərə qarşı istifadə ediləcək qılınc var. Bu, Gürcü xalqının həm qonaqpərvərliyini, həm də müstəqillik və azadlıq uğrunda mübarizəsini simvolizə edir . Əlavə olaraq, Elguca Amaşukelinin yaratdığı digər heykəllər və büstlər Mtatsminda Panteonunda yerləşir. Bu panteon, Gürcüstanın tanınmış şəxsiyyətlərinin dəfn olunduğu və onların xatirəsinə ucaldılmış abidələrin yerləşdiyi bir məkandır.

O, Nikoloz Kandelakinin tələbəsi idi. Yaradıcılığı janr baxımından rəngarəng olan Amaşukeli əsasən monumentalistdir, dəzgah heykəltəraşlığında uğurla işləyib, relyeflər yaradıb. Amaşukeli yaradıcılığı aktuallıq, vətəndaşlıq və vətənpərvərlik pafosu, qüsursuz məkan və ritm hissi, aydın siluet, monumentallıq, daxili dinamika, bəzən kəskin ifadə, materialın fakturasının aşkar hissiyyatı, əhval-ruhiyyə yaratmaq bacarığı ilə səciyyələnir; O, tez-tez simvollara və alleqoriyalara müraciət edirdi.

1984-89-cu illərdə SSRİ Rəssamlar İttifaqının katibi olub. O, həmçinin Rusiya Rəssamlıq Akademiyasının müxbir üzvü (1988); "Şərəf Nişanı", "Qırmızı Əmək Bayrağı", "Xalqlar Dostluğu" ordenlərinin sahibi, Sovet İttifaqı və Bolqarıstan Xalq Respublikasının dövlət mükafatları laureatıdır.

Elquca Amaşukeli 16 mart 2002 –ci ildə Tbilisidə vəfat edib. O, Didube Yazıçılar və İctimai Xadimlər Panteonunda dəfn olunub. Elquca Amaşukelinin sənətkarlığı və yaratdığı əsərlər, Gürcüstanın mədəni irsinin vacib bir hissəsini təşkil edir və onun adı ölkənin incəsənət tarixində əbədi olaraq qalacaqdır.

## NƏSİBƏ ZEYNALOVA



***Nəsibə Cahangir qızı Zeynalova 20 aprel 1916-cı ildə Bakıda anadan olub. Atası Cahangir Zeynalov həm tanınmış tacir, həm də Azərbaycan milli realist aktyor məktəbinin banilərindən biri idi. Atası qızının da onun sənətini davam etdirməsini arzulayırdı.*** Lakin 1918-ci ilin mart ayında erməni daşnakları Bakıda kütləvi qırğınlar törədəndə Cahangir Zeynalov ailəsi ilə İrana yollanıb. Sentyabrda Bakıya qayıdanda gəmidə yatalaq xəstəliyinə tutulan Cahangir Zeynalov qısa müddət sonra rəhmətə gedib .

Nəsibə xanımın sənət yolu 1932-ci ildə Rza Təhmasibin dram dərnəyinə üzv olmaqla başlayıb. Aleksandr Tuqanovdan, Məhərrəm Haşımovdan, Ağasadıq Gəraybəylidən dərs alan Nəsibə Zeynalova texnikumda oxuyarkən Katarina ("Şıltaq qızın yumşalması", Uilyam Şekspir), Elvira ("Don Juan", Jan Batist Molyer), Yelizaveta ("Mariya Stüart", Fridrix Şiller) rollarını oynayıb.

Ömrünü Musiqili Komediya Teatrı ilə bağlayan aktrisa sənət ocağının müəyyən fasilələrlə truppa, Filarmoniyanın nəzdində dəstə-ansambl şəklində fəaliyyət göstərdiyi illərdə də kollektivdən ayrılmayıb. Aktrisa Azərbaycan klassik operettalarının tamaşalarında Gülpəri, Cahan xala, Sənəm ("Ər və arvad", "Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Mələk xanım və Kələk xanım ("Əlli yaşında cavan", Zülfüqar bəy Hacıbəyov) kimi xarakterik səhnə obrazlarında çıxış edib. 1937-ci ildə isə səyyar Kolxoz və Sovxoz Teatrında aktrisa kimi fəaliyyətə başlayıb. O, həm teatr, həm də kino sahəsində yüzlərlə obraz yaradıb. Ən çox yadda qalan rollarından biri "Qayınana" filmindəki Cənnət xala obrazıdır. Bu rol onu tamaşaçılara daha da yaxınlaşdırdı və "səhnəmizin qayınanası" kimi tanındı.

Nəsibə Zeynalova 1960-cı ildə Azərbaycan SSR-in Əməkdar artisti, 1967-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. 1974-cü ildə "Hicran" tamaşasındakı Qızbacı rolu ona Dövlət Mükafatı qazandırdı . Nəsibə xanımın şəxsi həyatı da maraqlı hadisələrlə doludur. Gənc yaşlarında ailə qurduğu əri müharibədə həlak olub. Daha sonra özündən 11 yaş kiçik bir şəxslə evlənib . Onun pişiyinə elçi getməsi və nəvəsini övladlığa götürməsi kimi qeyri-adi hadisələr də həyatının maraqlı səhifələrindəndir. Nəsibə Zeynalova 10 mart 2004-cü ildə Bakıda vəfat edib. O, Azərbaycan mədəniyyətində silinməz iz qoymuş sənətkarlardandır. Onun yaratdığı rollar bu gün də sevilir və yaddaşlarda yaşayır.

17 mart 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nəsibə Zeynalovanın 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır.

18 yanvar 2017-ci ildə Nəsibə Zeynalovanın anadan olmasının 100 illiyi münasibətilə Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində ədəbi-bədii axşam keçirilib. Yubiley gecəsində "Qayınana" bədii filmi ilk dəfə alman dilində subtitrlərlə nümayiş olunub.

## ROMA

İtaliyanın ən böyük şəhəri və paytaxtı olan Roma Latsio bölgəsində, Tibr çayının sahillərində yerləşir. Roma Avropa qitəsinin ən qədim şəhərlərindən biridir.

Şəhərin tarixi 753-cü ildə, əfsanəvi Romulun Tibr çayı sahillərində yerləşən 7 təpədə - Aventin, Viminal, Kapitoliy, Kvirinal, Palatin, Tseliy və Eksvilində - şəhər qurması ilə başlayıb. Əvvəlcə şəhər 7 kral təfərindən idarə edilib, son kralın devrilməsindən sonra o dövr üçün effektiv siyasi quruluşa və hüquq sisteminə malik respublikaya çevirilib. Davamlı müharibələr nəticəsində şəhər öz hakimiyyətini bütün İtaliyaya və ardından da Avropa, Şimali Afrika və Yaxın Şərqə yayaraq o zamankı dünyanın ən böyük dövlətinə çevirilir.



Eramızın V əsrində Qərbi Roma İmperiyası süqut edib, lakin şəhər bu dəfə Katolik kilisəsinin mərkəzinə və təsiri bütün Qərb Xristian aləminə yayılan Roma Papa Dövlətinin mərkəzinə çevirilib. 1870-ci ildə Roma birləşmiş İtaliyanın rəsmi paytaxtına çevirilib.

Yuxarıda qeyd etdiyimiz kimi, qədim tarixə malik olan Roma şəhərində yerləşən tarixi və mədəni önəmli abidələr bütün dünyadan turistləri özünə cəlb edir. Burada Qədim Romanın iqtisadi və siyasi mərkəzi olan Roma Forumunun qalıqları, Qədim Romanın əyləncə mərkəzi olan Koliseum amfiteatrı, Panteon məbədi, Appiy Yolu, Katolik mədəniyyəti üçün böyük önəmə sahib və dünyanın ən kiçik dövləti olan Vatikanın (həmin dövlət Romada yerləşir və Roma Papası tərəfindən idarə olunur) ərazisində yerləşən Müqəddəs Pyotr Katedrali və s. mövcuddur. Günümüzdə Roma sadəcə turistləri cəlb edən tarixi şəhər yox, eyni zamanda beynəlxalq önəmə sahib təhsil və mədəniyyət mərkəzidir. Roma müxtəlif akademiya, kollec və kitabxanalara malikdir. City Brands Index-ə görə, Roma tarixi, təhsil və mədəniyyət baxımından dünyanın ən maraqlı və gözəl şəhərlərindən biri hesab olunur. İlk universitet kimi tanınan La Sapienza (1303-cü ildə yaradılmışdır) 140.000-dən çox tələbəsi ilə dünyanın ən böyük universitetlərindən biridir; 2005-ci ildə Avropanın ən yaxşı universitetləri arasında 33-cü yerdə qərarlaşıb və 2013-cü ildə Roma Sapienza Universiteti Dünya Universitetləri Reytinqində dünyada 62-ci, İtaliyada isə birinci olub və Avropanın ən yaxşı 50 kollecinə və dünyanın ən yaxşı 150 kollec sırasına daxil edilib. La Sapienzada izdihamı azaltmaq üçün son onilliklərdə iki yeni dövlət universiteti yaradılmışdır: 1982-ci ildə Tor Verqata və 1992-ci ildə Roma Tre. Romada həmçinin beynəlxalq münasibətlər və Avropa tədqiqatları sahələrində İtaliyanın ən mühüm universiteti olan LUISS Hökumət Məktəbi və İtaliyanın ən mühüm biznes məktəbi olan LUISS Biznes Məktəbi yerləşir. 1973-cü ildə Giulio Carlo Arqan tərəfindən əsası qoyulan Roma ISIA İtaliyanın sənaye dizaynı sahəsində ən qədim qurumudur.

Romanın əsas kitabxanaları bunlardır: 1604-cü ildə əsası qoyulan Angelica Kitabxanası İtaliyada ilk kütləvi kitabxanadır; 1565-ci ildə əsası qoyulmuş Vallicelliana Kitabxanası; 1701-ci ildə Kardinal Girolamo Casanatensenin şəxsi kitabxanası əsasında açılmış Casanatense Kitabxanası;4,126 milyard cilddən ibarət Roma Milli Mərkəzi Kitabxanası; diplomatiya, xarici əlaqələr və müasir tarix üzrə ixtisaslaşan Xarici İşlər Nazirliyi və Müasir Tarix Kitabxanası; İtalyan Ensiklopediyası İnstitutunun Kitabxanası və s.

Roma İtaliyanın paytaxtıdır və buna görə də Prezident, Hökumət, Parlamentin hər iki palatası, Konstitusiya Məhkəməsi və İtaliya Respublikasının Ali Kassasiya Məhkəməsi də daxil olmaqla, millətin bütün əsas qurumlarına ev sahibliyi edir. Romada İtaliya və Vatikanda bütün ölkələrin diplomatik nümayəndəlikləri fəaliyyət göstərir.

Roma Apennin yarımadasının mərkəzində yerləşdiyindən, İtaliyanın əsas dəmir yolu mərkəzinə çevrilib. Romanın əsas dəmir yolu stansiyası Termini gündəlik 400.000-dən çox sərnişinə xidmət göstərir. Romadakı şəxsi sərnişin daşıma sisteminə taksilər və Noleggio Auto Con Conducente (Sürücülü Avtomobil) daxildir. Romadakı bütün taksilər yalnız ağ rəngdədir. Taksinin qapısında gediş haqqı və Roma Bələdiyyəsi tərəfindən verilmiş lisenziya nömrəsi göstərilməlidir.

GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
"საქართველო"
"SAKARTVELO"
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



MƏDƏNİYYƏT

## USTAD AŞIĞIN ANIM GÜNÜ QEYD OLUNUB



***12 aprel 2025-ci ildə Gürcüstan Birləşmiş Aşıqlar İttifaqının (GBAİ) sədri Xəlil Hüseynovun təşkilatçılığı ilə aşıq Hüseyn Saraclının doğma kəndi Saraclıda ustadın anım günü qeyd olunub.*** Tədbirdə aşıqlar, şairlər, ziyalılar, Saraclı kəndinin fəalları iştirak etdilər. Tədbiri Xəlil Hüseynov açaraq aşıq Hüseyn Saraclının təkrarsız sənətkarlığı və insani keyfiyyətləri haqqında geniş məlumat verdi. Xəlil Hüseynov və şair Aslan Gorarxılı aşığın kənddəki büstü önünə gül dəstələri qoydular. Sonra şair Aslan Gorarxılı çıxış etdi və şeirləri ilə tədbir iştirakçılarının ruhunu oxşadı.

Ziyalılar Səyyad Eyvazov və Qara Orucov aşıq Hüseyn Saraclı haqqında xatirələrini tədbir iştirakçılarının diqqətinə çatdırdılar. Ustad Hüseyn Saraclının şagirdi Sabir aşığın misilsiz sənəti və yaradıcılığı haqqında şəxsi xatirələrindən söz açdı. Tədbir boyu aşıq Mirzə Məmmədov və aşıq Hacımurad Məmmədov öz ifaları ilə tədbir iştirakçılarına xoş ovqat bəxş etdilər.

Tədbirdə əslən Bolnisinin Saraclı kəndindən olan Moskvadan gəlmiş qonaq qismində iştirak edən Əfras Nəriman oğlu Xəlilov böyük bir şəxsiyyətin, dahi ustadın anım gününün daha geniş tərkibdə qeyd olunmasının vacibliyini dilə gətirdi.

Tədbirdə Xəlil müəllim tərəfindən təklif olundu ki, gələn il — 2026-cı ildə aşıq Hüseyn Saraclının anadan olmasının 110-cu ildönümü böyük təntənə ilə qeyd olunsun.

Daha sonra tədbir iştirakçıları aşığın büstü önündə xatirə şəkilləri çəkdirdilər.

**Şamil Ziyadəliyev,**
**"Gürcüstan"ın xüsusi müxbiri**

QANADLI AİLƏNİN YAZ HEKAYƏSİ



Foto E.Şahvəlıdindir.

AD GÜNÜ

## ÇALI QUŞU
### QIZIM NOVELLANIN AD GÜNÜNƏ MƏKTUB



Sən taleyinin, qismətinin eskizlərini sanki doğulmamışdan öncə cızmışdın. Ömür yolunun olaylarını bilərəkdən elə sıralamışdın ki, son ucda Çalı quşu taleyi yaşamaq, ucqar bir guşənin dərd-sərinə, əyər-əskikinə sahib durmaq tale yazın olub. Başkeçidin Qəmərli-Şahmarlı yörəsində qısa bir zamanda maarifpərvərliyin, ədalətsevərliyin, haqqı söyləməyin, insanlara yeni yanaşma bacarığın səni tezliklə el-obanın sevimlisi etmiş, hörmət-izzət sahibi olmusan. Buralara ilk gəldiyin günlər uyğunlaşa biləcəyin bu elin adamlarının nimdaş boyaları, məktəbli uşaqların kövrək baxışları, müəllimlərinin kasıb yaşam tərzi, kişilərinin eryəti söhbətləri, qadınlarının nimdaş çöhrələri sənə qəribə gəlsə də, tədricən bütün bunlara alışdın, beynini dəng edən yalquzaq itlərin zingiltisinə də, sahibindən küsmüş inəklərin, balasına həsrət qalan qomral gözlü qoyunların mələrtisinə də, dabanıçartdaq qız-gəlinlərin yorğun-arğın hallarına da, pırpız saçlı qız uşaqlarının, keçəl başlı oğlanların məsum baxışlarına da öyrəşdin, simsar oldun yad bir kənddə. Sən demə, dünyanın bu guşəsində, sənin ağlına belə gəlməyən, yuxuna belə girməyən, möcüzəvi bir Qəmərli-Şahmarlı kəndləri var imiş. Sən dünyanın bu möcüzələrindən xəbərsizsənmiş. Heç ağlına da gəlməzdi ki, sən dünyanın bu qəribə guşəsində Fəridəsayağı işlər görəcəksən, dünyanın pələngi sandığın yeganə övladın Aslanla birlikdə bir ömrün hekayəsini yazacaq, Ad gününə təbrikləri qarlı dağların ətəyində yerləşən Şahmarlıda qəbul edəcəksən.

Sən mənim üçün Aslanımın anası, gözlərimə nur saçan bir mələk, Qəmərli-Şahmarlı üçün Fəridəsən, Çalı quşusan. Həyatın mənalı, uğurlu illərlə zəngin olsun, qızım! Bütün gözəlliklər cismində cəm olsun!

Ad günün mübarək, mənim Novella qızım!

***Hörmətlə:* atan**
**Əbdüləli İbrahimsoy.**

## TƏBRİK EDİRİK!



Dmanisi rayonunun, Yırğançay ictimai məktəbinin və "Gürcüstan" qəzetinin kollektivləri məktəbin direktoru **Şakir Çerpanovu** (14 aprel) və məktəbin dərs hiss müdiri **İman Xudiyevi** (15 aprel) ad günü münasibəti ilə ürəkdən təbrik edir. pedaqoji fəaliyyətlərində uğurlar arzulayır!

İDMAN

## DÜNYACA MƏŞHUR UFC TURNİRİNƏ AZƏRBAYCAN İLK DƏFƏ EV SAHİBLİYİ EDƏCƏK




***Azərbaycan ilk dəfə dünyaca məşhur UFC (Ultimate Fighting Championship) turnirinə ev sahibliyi edəcək.***

Turnir iyunun 21-də Bakıda baş tutacaq. Tədbir UFC, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin birgə əməkdaşlığı ilə təşkil olunacaq. Turnirin əsas qarşılaşmasında UFC yarımağır çəki dərəcəsinin keçmiş çempionu Camal Hill ilə Xəlil Raundtri Jr. üz-üzə gələcəklər.

Məlumata görə, UFC prezidenti və baş icraçı direktoru Dana Uayt və Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov əməkdaşlıq haqqında razılaşma imzalayıblar. İmzalanma mərasimi UFC 314: Volkanovski – Lopes döyüşündən öncə, Mayami şəhərində keçirilib.

Turnirdə həmçinin digər maraqlı döyüşlər də yer alacaq.

BAŞSAĞLIĞI

Bolnisi rayonunun Talaveri (Faxralı) 1 saylı ictimai məktəbinin direktoru Cümşüd Gülməmmədov və pedaqoji kollektiv məktəbin müəllimi Natiq Əliyevə atası

**Abbas Allahyar oğlu Əliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

***ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !***

## "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი" ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.